Azad AZƏRBAYCAN

MÜSTƏQİL İCTİMAİ-SİYASİ QƏZET

# Əsrin fatehi - İlham Əliyev

**Ötən əsr Azərbaycan... qara buludların başımız üzərində olduğu dövr...90-cı illər...**

Lakin hər qaranlıq gecənin bir işıqlı sabahı olduğu kimi ,üstümüzü almış o qara buludların arasında günəş kimi doğaraq , ölkəmizi , millətimizi azadlığına , müstəqilliyinə qovuşduran Heydər Əliyev xalqımızın xilaskarı oldu. Ömrünü xalqına bağışlayan düha Azərbaycan dövlətçiliyini , dövlətin siyasi , iqtisadi, mədəni, sosial inkişafına təkan yaratdı Amma ümummilli lider cəmi on il ərzində on ilə sığmayan işlər görmüşdür. Onun vaxtsız şəkildə xalqımızdan ayrılması Azərbaycan xalqını sarsıtdı. Xalq onun yoxluğunda yenidən başına gələcəklərindən çox qorxurdu. Bəxtimiz onda gətirdi ki, Heydər Əliyev özü kimi bir lideri , siyasi kursunun örnək davamçısını xalqımıza əmanət etdi.

Prezidentlik dövrünə qədər İlham Əliyev Milli Məclisin I və II çağırış deputatı ,Azərbaycan Respublikasının Baş Naziri,Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin vitse-prezidenti, birinci vitse-prezidenti olmuşdur. Heydər Əliyevin neft strategiyasının həyata keçirilməsində fəal iştirak etmişdir. Suveren Azərbaycanın neft siyasətinin geosiyasi aspektlərinə dair bir sıra tədqiqat işlərinin müəllifidir.Azərbaycan Milli Olimpiya Komitəsinin prezidenti,Avropa Şurası Parlament Assambleyasında Azərbaycan Respublikası Milli Məclisinin nümayəndə heyətinin rəhbəri olmuşdur.

Prezident İlham Əliyevin uzaqgörən siyasətini müxtəlif istiqamətləri əhatə edən , çoxşaxəlli xüsusiyyətləri ilə xarakterizə etmək olar. İstər xarici, istərsə də daxili siyasət - mədəniyyət, elm,gənclərlə bağlı , ekologiya,iqtisadi, din,səhiyyə, enerji, nəqliyyat, idarəçilik, hərbi,inkişaf və inyeqrasiya ,idman siyasəti dövlətin inkişafı üçün müstəsna rol oynamışdır.

Məlum olduğu kimi müasirləşməni strateji hədəf kimi müəyyənləşdirən Azərbaycanda da təhsil dünyanın qabaqcıl ölkələrinin təcrübəsi nəzərə alınmaqla dövlət siyasətinin prioritetlərindən biri kimi müəyyənləşdirilib. Son 17 ildə respublikamızda dövlət başçısının siyasi iradəsinə uyğun olaraq təhsilin keyfiyyətinin yüksəldilməsi, gənclərin innovasiyalara, yeni texnologiyalara çıxış imkanlarının genişləndirilməsi məqsədilə böyük həcmli işlər görülüb. Prezident İlham Əliyev tərəfindən qarşıya qoyulan vəzifə isə belədir ki, Azərbaycan təhsili ən yüksək tələblərə cavab verməlidir. "Təhsil sahəsində bu günə qədər aparılan islahatlar daha da dərinləşməlidir. Təhsil ölkəmizin ümumi inkişafına uyğun şəkildə inkişaf etməlidir və ən müasir tələblərə cavab verməlidir", - deyə dövlətimizin başçısı vurğulamışdır.

Möhtərəm Prezidentimiz İlham Əliyev hakimiyyətə gəldiyi vaxtdan digər sahələrdə olduğu kimi mədəniyyət sahəsində də əsaslı islahatları daha da sürətləndirməyə başlamışdır.Kino, teatr, musiqi tətbiqi sənət, tarixi abidələrin qorunması və bərpası ilə bağlı qəbul olunan dövlət proqramları və cənab Prezidentin ölkədə bu mədəniyyət sahələrinin inkişafı ilə bağlı sərəncamları bir daha təsdiq edir ki, ölkəmizdə mədəniyyətə, mənəvi dəyərlərin qorunub saxlanılmasına həqiqətən böyük qayğı var.YUNESKO və İSESKO kimi mötəbər beynəlxalq təşkilatlar artıq Azərbaycanı sivilizasiyalı bir ölkə kimi tanıyır.Azərbaycan muğam sənətinin, İçərişəhərin (Şirvanşahlar Tarixi-Qoruq Muzeyi ilə birlikdə), Qobustan Dövlət Qoruğunun, YUNESKO-nun maddi və mənəvi irs siyahılarına salınması milli-mənəvi dəyərlərimizin dünyada tanınması istiqamətində görülən işlərin real nəticəsidir.Dövlət başçımızın mədəniyyətimizə göstərdiyi qayğının bir nümunəsi də görkəmli sənət adamlarının qiymətləndirməsidir.İlham Əliyev tolerantlıq və multikulturalizmi Azərbaycanda dövlət siyasəti və həyat tərzi kimi xarakterizə etmişdir.



Gənclərin cəmiyyətin bütün sahələrində fəallığının artırılması ölkəmizin etibarlı gələcəyinin tam təminatı və dövlətçilik ənənələrinin gücləndirilməsi üçün başlıca şərtlərdəndir. Gənclik bir millətin yaşaması, inkişafı üçün təməl daşıdır. Çünki hər bir ölkədə dövlətçiliyin, müstəqilliyin daha da möhkəmləndirilməsi, gələcəyin etibarlı təminatı intellektual səviyyəli potensial kadrların yetişdirilməsindən, onların aparıcı qüvvəyə çevrilməsindən çox asılıdır. Bu baxımdan ölkəmizdə gənclərlə iş sahəsində görülən tədbirlər Azərbaycan gəncliyinin inkişafına təkan vermiş, onların cəmiyyətdə özlərini təsdiq etməsində böyük rol oynamışdır. Bu gün gənc nəslin düzgün yetişdirilməsi ölkə siyasətində önəmli yer tutur. Əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş dövlət gənclər siyasətinin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsinin nəticəsidir ki, bu gün Azərbaycan gəncləri bütün sahələrdə özlərini doğruldurlar.Bu gün Azərbaycanda gənclər siyasəti dövlət siyasətinin mühüm tərkib hissəsidir. Azərbaycan gəncliyi ictimai həyatın bütün sferalarında aktiv fəaliyyəti ilə seçilir və siyasi, iqtisadi, humanitar, sosial tədbirlərin həyata keçirilməsində mühüm rol oynayır. Dövlətin gənclərin fəaliyyəti üçün yaratdığı geniş imkanlar nəticəsində bu təbəqə cəmiyyətin avanqard qüvvəsinə çevrilib.Dövlət gənclər siyasəti - gənclərin öz bilik və bacarıqlarını, təbii potensialını effektli reallaşdırmasını, cəmiyyətdə layiqli yer tutmasını təmin edən şəraitin yaradılması məqsədilə dövlət tərəfindən müəyyən edilmiş prioritetlər və həyata keçirilən tədbirlər sistemidir. Dövlət gənclər siyasəti müvafiq hüquqi sənədlərdə öz əksini taparaq hökumət qurumları tərəfindən həyata keçirilir.

Möhtərəm prezidentimiz İlham Əliyevin imzaladığı fərmanlarda, təsdiq etdiyi milli və dövlət proqramlarında ekoloji problemlərin həlli üçün zəruri olan bütün vəzifələr elmi əsaslarla, müasir dövlətçilik ənənələrinə söykənərək zərgər dəqiqliyi ilə müəyyənləşdirilmişdir.Həmin sənədlər sırasında meşələrin bərpa edilməsinə, yayqış otlaqlarının, biçənəklərin səmərəli istifadə olunması və səhralaşmanın qarşısının alınmasına, alternativ və bərpa olunan enerji mənbələrindən istifadə edilməsi üzrə, ekoloji vəziyyətin yaxşılaşdırılmasına, avtomobil yollarının mühafizə zolaqlarının yaşıllaşdırılmasına ,iqlim dəyişikliyi ilə bağlı fəlakətlərin qarşısının alınması və ətraf mühiti çirkləndirən amillərə qarşı ciddi mübarizənin təşkilinə dair tədbirlər yer alır.

Xalqının qayğıkeş prezidenti İlham Əliyev 2003-cü ildən bəri Şəkərli diabet xəstəliyinə tutulmuş şəxslərə dövlət qayğısı , narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi ,insanın immunçatışmazlığı virusunun törətdiyi xəstəliklə mübarizə , dağınıq skleroz xəstəliyinə tutulmuş şəxslərə dövlət qayğısı haqqında fərmanları səhiyyə sahəsinə böyük töhfə verən addımlardan hesab olunur.

Prezident İlham Əliyev müasir Azərbaycanın iqtisadi inkişaf modelini yaratmış və bu model dövlətimizin ümumi siyasətinin ayrılmaz tərkib hissəsi olmaqla, Azərbaycanın iqtisadi tərəqqisinə, dünya birliyində mövqeyinin köklü surətdə möhkəmlənməsinə, inkişaf etmiş güclü dövlətlər sırasında yer almasına zəmin yaratmışdır. Prezident tərəfindən yürüdülən uğurlu, qətiyyətli siyasət, həyata keçirilən dövlət proqramları və makroiqtisadi layihələr Azərbaycan iqtisadiyyatının daha da yüksələcəyinə rəvac verməkdədir.Prezident İlham Əliyev güclü iqtisadiyyatın önəmini belə vurğulamışdır: "Əgər iqtisadi gücümüz olmasaydı, bu Qələbəni əldə etmək mümkün olmazdı. İlk növbədə, iqtisadi müstəqillik təmin edilməli idi və təmin edildi. Bu gün Azərbaycan iqtisadi cəhətdən heç kimdən asılı deyil, heç bir ölkədən asılı deyil, heç bir beynəlxalq maliyyə qurumundan asılı deyil. Müstəqillik və bu, bizə imkan verdi ki, ölkəmizi inkişaf etdirək, eyni zamanda, Ordumuzu gücləndirək"

Azərbaycanın bütün strateji əhəmiyyətli sahələrində dinamik inkişafa yol açan ardıcıl və sistemli islahatlar həyata keçirən dövlət başçısı ordu quruculuğuna da xüsusi diqqətlə yanaşır. Milli Ordunun müdafiə qüdrətinin və döyüş qabiliyyətinin artırılması, maddi-texniki təchizatının yaxşılaşdırılması, o cümlədən hərbi qulluqçuların sosial müdafiəsi tədbirlərinin gücləndirilməsi bu siyasətin prioritet istiqamətləri kimi diqqəti çəkir.Ali Baş Komandan İlham Əliyevin apardığı ardıcıl siyasətin, diqqət və qayğısının məntiqi nəticəsidir ki, Azərbaycan Ordusu müasir silah-sursat, döyüş texnikası, onların keyfiyyəti, şəxsi heyətin sayı və döyüş əzmi baxımından düşmən ordusunu dəfələrlə qabaqlayır , ordumuz dünyanın aparıcı 50 ordusu sırasındadır və şanlı qələbə qazandıq.

Azərbaycan Respublikasının Prezidenti həm xarici ölkələrə səfərləri zamanı, həm də ölkəmizə qonaq gəlmiş xarici ölkələrin dövlət, hökumət və parlament rəhbərləri, beynəlxalq təşkilatların rəhbərləri və nümayəndələri ilə çox intensiv görüşlər keçirmiş, müzakirələr aparmışdır. Fəaliyyəti dövründə Prezident İlham Əliyev ölkəmizin ən ağrılı problemi olan Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həll olunması məqsədilə danışıqlar aparmaq olmuşdur.Möhtərəm Prezidentimizin siyasi iradə nümayiş etdirməsi və məntiqli xarici siyasəti nəticəsində ölkəmizin mövqeyi nüfuzlu beynəlxalq təşkilatlar və dünya birliyi tərəfindən daha çox qəbul edilir. Azərbaycan Prezidentinin xarici siyasəti xalqımızın mənafeyini, müstəqil dövlətimizin inkişafını və perspektivlərini müəyyənləşdirir. Azərbaycanın son illər ərzində xarici siyasət strategiyasının uğurla həyata keçirilməsi ölkəmizin dünya miqyasındakı nüfuzunu xeyli artırıb. Bu illər ərzində Azərbaycan daim dəyişən beynəlxalq mühitə uyğunlaşmaqla, eyni zamanda, regional liderə çevrilmişdir.

İlham Əliyev Azərbaycanın 30 ilə yaxın müddətdə işğal altında qalmış torpaqlarını Ermənistanla danışıqlar apararmağa,Ermənistan-Azərbaycan münaqişəsini sülh yolu ilə nizamlamağa çalışdı. Lakin bu danışıqlar heç bir nəticə vermədi, əksinə, aydın oldu ki, Ermənistan tərəfi, sadəcə olaraq, vaxt qazanmaq, status-kvonu möhkəmləndirmək və əbədi etməyə istəyir.Azərbaycansa bu işğalla barışa bilməzdi və barışmadı. 2020-ci il sentyabrın 27-də Ermənistanın növbəti irimiqyaslı hərbi əməliyyatlara başlamasına, Azərbaycan Ordusunun mövqelərinə və mülki yaşayış məntəqələrinə atəş zərbələri endirməsinə cavab olaraq əks-hücum əməliyyatı işə düşdü, sonradan "Dəmir Yumruq" adını alan bu əməliyyat Vətən müharibəsinə çevrildi.

44 günlük Vətən müharibəsi dövründə Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyev xalqa müntəzəm müraciətlər etdi. Bu müraciətlər Azərbaycan xalqını ayağa qaldırdı, onu yumruq kimi sıx birləşdirdi, müharibənin gedişatına güclü təsir göstərdi. 2020-ci il sentyabrın 27-də xalqa ilk müraciətində bütün cəmiyyəti qəti qələbəyə kökləyən Prezidentimiz demişdir : "Biz haqq yolundayıq. Bizim işimiz haqq işidir. Biz zəfər çalacağıq! Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!". 44 gün ərzində xalqımız birlik halında düşmənə qalib gəldi. Bu çətin və keşməkeşli yolun sonu uğurla bitdi. 2020-ci il noyabrın 8-i Azərbaycan tarixinə qızıl hərflərlə Zəfər günü kimi yazıldı. Prezident İlham Əliyev xalqa sayca yeddinci müraciətini Şəhidlər xiyabanından edərək Şuşa şəhərinin işğaldan azad olunmasını Azərbaycan xalqına, bütün dünya azərbaycanlılarına elan etdi: "Mən bu gün, eyni zamanda, ulu öndər Heydər Əliyevin məzarını ziyarət etdim, onun ruhu qarşısında baş əydim. Ürəyimdə dedim, xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik! Bu, böyük Qələbədir! Şəhidlərimizin, Ulu Öndərin ruhu şaddır bu gün! Gözün aydın olsun Azərbaycan! Gözünüz aydın olsun dünya azərbaycanlıları! ...Bu gün Azərbaycan xalqı bu yumruq kimi birləşib! Həmişə belə olacaq! Bu birlik əbədi olacaq! Bu birlik bizə gələcəkdə də bütün vəzifələri icra etmək üçün imkan yaradacaq... Əziz Şuşa, sən azadsan! Əziz Şuşa, biz qayıtmışıq! Əziz Şuşa, biz səni dirçəldəcəyik!". Vətən müharibəsi dünya hərb elmində həm də "XXI əsrin müharibəsi" adını qazanıb. Çətin relyef şəraitində düşmənin onilliklərlə qurduğu mürəkkəb istehkamlar qarşısında müzəffər Azərbaycan Ordusu əsl peşəkarlıq, məharət, yenilməz əzm nümayiş etdirib və ən əsası Vətənə sonsuz məhəbbətlə uğrunda hər cür fədakarlığa istənilən şəraitdə hazır olduğunu bütün dünyaya isbat edib.

Bu qələbə Azərbaycan xalqının Qarabağ həsrətinə son qoyub, işğaldan azad edilmiş ərazilərdə ən müasir standartlarla bərpa və yenidənqurma işlərinə başlanılıb, Qarabağa həyat qayıdıb. Məhz Vətən müharibəsinin nəticəsi kimi Azərbaycanın Ermənistanla sərhəd xəttinin bərpasına başlanılıb və Zəngəzur dəhlizi yaxın müddətdə tarixi reallığa çevriləcək.

2021-ci il iyunun 15-də Şuşada imzalanmış Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsində də Zəngəzur dəhlizinin açılmasının bölgənin həyatında yeni mərhələ olacağı öz əksini tapıb. Şuşa Bəyannaməsinin tarixi əhəmiyyətini Prezident İlham Əliyev dəqiq ifadə edib: "Bəyannamədə xalqlarımızın böyük liderləri, öndərləri Mustafa Kamal Atatürkün və Heydər Əliyevin kəlamları öz əksini tapıb. XX əsrin əvvəllərində Mustafa Kamal Atatürk demişdir: "Azərbaycanın sevinci sevincimiz, kədəri kədərimizdir". XX əsrin sonlarında Heydər Əliyev demişdir: "Türkiyə və Azərbaycan bir millət, iki dövlətdir". Bu tarixi sözlər, kəlamlar bizim fəaliyyətimiz üçün əsas amildir.Xankəndi səmalarında bayrağımızın dalğalandırılmasının 15 oktyabr tarixinə təsadüf etməsinində bir səbəb var. O da İlham Əliyevin 2003-cü il 15 oktyabrda Prezident seçilərək hakimiyyətə gəlməsidir. Bu iki mötəbər günün eyni tarixdə qovuşması isə şanlı tariximizə qızıl hərflərlə yazılmışdır.

**Bu gün müstəqil , bayrağı zirvələrdə fəxrlə dalğalanan , günü-gündən çiçəklənən, dünya arenasında nüfuz dairəsində olan Azərbaycan məhz Heydər Əliyev və onun siyasi kursunun davamçısı İlham Əliyevin uzaqgörən , qətiyyətli və uğurlu siyasətinin nəticəsidir. Biz - azərbaycanlılar da bu dövlətin vətəndaşları olduğumuz üçün qürur duyuruq.**

**Müəlliflər: Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının tələbələri:**

**Hətəmli Günel** **Mirzəyeva Nərmin**



